# KİMYANIN TƏDRİSİ SAHƏSİNDƏ TƏHSİLALANLARIN BİLİK VƏ BACARIQLARNININ FORMALAŞDIRILMASI VƏ AŞILANMASI İMKANLARI

***Təbriz İ. Bayrampur***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Pedaqoji sistemdə şagirdlər və tələbələr müəllimlərin biliklərini ötürdüyü obyekt kimi qəbul olunur. Şagirdlərdə dərsə olan marağın artırılmasına onların kimya elminin incəliklərinin öyrədilməsi yollarının araşdırılması və qavramanın asanlaşdırılması yolları əsas məsələ və periodik istiqamətlərdən biridir.

Kimyanın tədrisi prosesi zamanı şagirdlərdə dərin və zehni biliklər verilir, onların habelə politexniki bilikləri genişləndirilir və möhkəmləndirilir, kimya fənninə bir elm kimi maraq oyadılır.

Qeyri-üzvi kimya kursu geniş bölmə olduğundan onun yarım bölmələri və tədqiqat sahələri çoxdur, bununla bağlı olaraq yeni elmi istiqamətlərdə praktiki təcrubələr aparmaq mumkundur.

Bəzi pedaqoqlar şagirdləri subyekt kimi görur və qəbul edirlər. Müəllim elm verən və şagird elmi öyrənən tərəfləri arasında sosial əlaqə şəxsi və fərdi biliklər yaradıcı və emosional təcrübələri ilə bölüşmə prosesi zamanı yaranır. Kimya kursu geniş bölmə olduğundan onun tədrisi üçün genişləndirilmiş dərs saatları tələb edilir. Hər şagirdin dərketmə, anlama qabiliyyəti müxtəlif olduğundan kursun tədrisi zamani müəllim şagirdlərin hər birininə ayrı-ayrılıqda bir fərd kimi yanaşır, tədris prosesində şagirdlərdə yeni-yeni bacarıqlar formalaşır, zehni inkişaf edir, onların anlama qabiliyyəti artır.

Düzgün qurulmuş şagird–müəllim münasibətləri şagirdlərin təlimə marağının artmasında mühüm üsuldur. Qarşılıqlı ünsiyyət zamanı şagirdlərin fəallığı artır. Müəllim həmçinin tədris prosesi zamanı yeni asan təlim üsulu tapmalıdır ki şagirdlərin zehninə birbaşa təsir göstərə bilsin.

Kimyanın tədrisində şagirdlərə keçirilən mövzu ilə bağlı mövzu testləri və məsələlər həll etdirmək, habelə müstəqil və dərsdənxaric işlərin aparılması prosesləri ilə onlarda tədqiqatçılıq keyfiyyətlərinin aşılanması mümkündür.

Şagirdlərin praktiki təcrübələri zamanı vərdişlər formalaşır, onların gələcəkdə bir mütəxəssis kimi, habelə kimyaçi kimi yetişməsində böyuk rol oynayır. Müəllim amili şagirdlərin müstəqil bir fərd və şəxsiyyət kimi yetişməsində və yaradıcı fəaliyyət göstərməsində mühüm rol oynayır.

Təhsilin inkişaf strategiyasında mühüm irəliləyişlərə nail olmuş ökələrin təcrübəsi göstərir ki, müasir təlim texnolgiyalarından fəal interaktiv təlim metodlarindan peşəkar ustalıqla istifadə edən yaradıcı düşüncəni inkişaf etdirən və

davamlı təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müəllim dərs zamani təlim məqsədlərinin reallaşdırılması zamanı daha yüksək nəticələr əldə edilir.

Öyrənmə prosesində şagirdin, tələbənin müstəqil düşünməsi və yaradıcı fəaliyyət göstərməsi üçün o nəyi və necə etməyi bilməlidir, bacarmalıdır. Təlim metodları şagird və tələbələrin yaşına, bilik səviyyələrinə uyğun seçilməlidir. Hər bir şagirdin psixoloji xususiyyətləri nəzərə alınmalıdır.

Kimya kursunun şagirdlərə çatdırılması zamanı onların daha yüksək bəhrələnməsi üçün tədris zamanı hər bir fənn maksimum şəkildə əlaqələndirilməli, təlim prosesi təcrübə və inteqrativ əsaslığa malik olmalıdır. Bildiymiz kimi, inteqrasiya prosesinin həm fəndaxili, həm də fənlərarası modelləri mövcuddur. Bu modellerdən fənlərin məzmunun şagirdlərə çatdırılması, onlarda bacarıqların və vərdişlərin formalaşdırılması, öyrənmə prosesinə maraq yaradılması, şagirdin dünya görüşünün inkişaf etdirilməsi və onların dərsin gedişi zamanı daha fəal olması məqsədi ilə də istifadə olunur.

İnteraktiv kurrikumlarda fənlərarası əlaqədən geniş istifadə olunur və bunun tətbiqi biliyin dərindən və sistemli şəkildə öyrədilməsinin açarıdır.

Məktəblərdə dərs saatlarının kifayət qədər az olması kimya fənninin tədrisinə tam şəkildə maneə olur, kimya kursunun incəlikləri şagirdlərə tam şəkildə çatdırıla bilmir.

Bütün ləvazimatlarla təchiz olunmuş laboratoriyalarda şagirdlərin praktiki bacarıqlarının artırılması üçün bütün vəsaitlər vardır ki, onlarin əl qabiliyyətlərinin inkişafına təcrübələrinin artmasına gətirib çıxarır.

Qeyri-üzvi kimya kursunun yeni metod və üsullarla şagirdlərə çatdırılması elmi yenilik, texnoloji tərəqqi və inkişaf təlim prosesində yaranan və inkişaf etdirilərək formalaşan müasir nəslimizin idrak fəaliyyətinin məhsuludur.

Yeni təcrübəyə əsaslanaraq kimya kursunu daimi inkişaf etdirmək qabaqcıl təhsilin məqsədinə çevrilməlidir. Təhsil sisteminin informasiyalaşdirilmasinda elektron dərsliklərin mühüm rolu vardır.

Şagirdlərin kimya laboratoriyaları və praktika ilə tanış edilməsi təcrübələrin qoyulması onlarda yeni vərdişlərin formalaşmasına gətirib çıxarır, təcrubə zamanı şagird laboratoriya qab-qacağı ilə yaxından tanış olur, onları yaxından görur, onlarda elmə həvəs yaranır.

Bəziləri elə düşünür ki, təhsilin funksiyasi yalnız biliyi ötürməkdir. Şagirdlər düşünməsələr biliyi qazana bilməzlər, hərşey müəllimin fənni başa salmasından asılıdır. Elmi aydın başa salan, şagird və tələbələrinə həssas yanaşan, analitik ideyaları yaxşı çatdıran müəllim olmalıdır. Yaxşı müəllim şagirdlərə təlim zamanı elə bilik verilməlidir ki, onlar qazandıqları bilikləri gələcəkdə bacarığa çevirib və praktikada tətbiq edə bilsinlər. Tələbələr mənimsədikləri biliklərin möhkəmləndirilməsi üçün müxtəlif üsullardan və metodlardan istifadə edirlər.

Təcrübə və praktika zamanı qazanılmış əldə edilmiş biliklərin

möhkəmləndirilməsi üçün ən geniş yayılan pedaqogikanın üsülu olan mövzunun həyatla əlaqələndirilməsi və keçirilmiş mövzunun təkrarlanması üsuludur, məsələn, deyə bilərik ki, qeyri-metallar bölməsində öyrənilən azot və fosforun sənayedə, kənd təsərüfatında istifadəsi şagirdlər müəllimin keçdiyi mövzunu sinifdəcə müəllimin nəzarəti altında öyrənir və bir-birləri ilə mövzu haqqında dialoqlar qururlar. Müəllim mövzu haqqında əlavə sual verir və hər bir tələbə öz münasibətini bildirir, qarşılıqlı bilik və fikir mübadiləsi baş verir, nəticədə bacarıq və vərdişlər formalaşır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Mahmud R.Allazov. Qeyri-üzvi kimya praktikumu. Bakı, BDU 2010.
2. Əyyub T.Əzizov. Kimyanın tədrisi metodikası. Bakı, BDU 2009.
3. R.Y.Əliyev. Kimyanın tədrisi metodikası. Bakı, ADPU 2006.
4. Г.М.Чернобельская. Методика обучения химии в средней школе. М.: 2000.
5. A.N.Əliyev. Muasir pedaqoji texnologiyalar və kimyanın tədrisində onlardan istifadənin metodikası. Bakı, 2010.

***Т.И. Байрампур***

**Возможности для формирования и развития знаний и умений студентов-химиков**

**РЕЗЮМЕ**

Информировать каждого ученика в соответствии со своими способностями мышления и понимания и формирование привычек с использованием специфических навыков.

***T.I. Bayrampur***

**Possibilities for the formation and development of knowledge and skills of chemistry students**

**SUMMARY**

Informing each student according to their ability to comprehend and understand and formulate habits using specific experiences.

**Açar sözlər:** təcrübə, strategiya, təlim, inteqrasiya.

**Ключевые слова:** опыт, стратегия, обучение, интеграция.

**Key words:** experience, strategy, training, integration.